

Təhsil Nazirliyi Gürcüstanda təhsil alan tələbələrlə bağlı açıqlama verib.

Nazirlikdən AzNews.az-ın sorğusuna cavab olaraq bildirilib ki, qeyri-dövlət xətti ilə Gürcüstan ali məktəblərində təhsil alan tələbələrin Təhsil Nazirliyində qeydiyyatı aparılmır və nazirlikdə onlara dair statistik məlumat mövcud deyil.

Nazirlikdən o da deyilib ki, Azərbaycan vətəndaşlarının ikitərəfli müqavilələr əsasında Azərbaycana ayrılan təqaüdlər hesabına və Təhsil Nazirliyi tərəfindən həyata keçirilən "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində Gürcüstan ali məktəblərində təhsil almaları nəzərdə tutulmayıb.